# Uşaqların Beynəlxalq Müdafiəsi Günü qeyd olunmuşdur

İyunun 1-ni Uşaqları Beynəlxalq Müdafiə Günü kimi qeyd etmək Beynəlxalq Demokratik Federasiyasının 1949-cu ilin noyabrında keçirilmiş sessiyasında qərara alınmış, 1950-ci ilin iyunun 1-də ilk dəfə qeyd olunmuşdur. Bundan sonra iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşmüşdür. Dünyanın əksər ölkələrində olduğu kimi, bu əlamətdar gün Azərbaycanda da hər il qeyd edilir.






İyunun 1-də Qəbələ şəhərindəki Heydər Əliyev Parkı da gül-çiçəklə bəzədilmiş, bayram libasına bürünmüşdü. Bayram şənliyinə toplaşan uşaqların sevinclərinin həddi-hüdudu yox idi. Tədbiri giriş sözü ilə açan uşaq yaradıcılıq mərkəzinin direktoru Rəfiqə Şirinova uşaqların beynəlxalq müdafiəsi günü haqqında bayram şənliyi iştirakçılarına ətraflı məlumat vermiş, ölkəmizdə uşaqlara göstərilən dövlət qayğısının gücləndirilməsindən, uşaq problemlərinə diqqətin artırılmasından, uşaqlarla bağlı demoqrafik perspektivlərin müəyyənləşdirilməsi istiqamətində görülən işlərdən ətraflı danışmışdır. Sonra uşaq yaradıcılıq mərkəzinin bədii kollektivləri və incəsənət məktəbinin şagirdləri maraqlı konsert proqramı ilə çıxış etmişlər. Rayon icra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Yaşar Nəzirov uşaqları bu bayram münasibətilə təbrik etmiş, onlara xoş gələcək, aydın səma arzulamışdır.

**«Qəbələ».**

# Uşaqlar bizim gələcəyimizdir

1 iyun—Uşaqların Beynəlxalq Müdafiəsi Günü dünyanın əksər ölkələrində dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq qeyd edilir. 1950-ci ildə BMT Baş Assambleyasının plenar iclasında qətnamə qəbul edilərək bütün dünyada ilin müəyyən bir gününün Beynəlxalq Uşaq Günü kimi qeyd edilməsi qərara alınıb. Bu gün dünyanın ayrı-ayrı ölkələrində müxtəlif vaxtlarda bayram edilsə də əksər ölkələrdə iyunun 1-də qeyd olunur.

Azərbaycan Respublikası 1992-ci ildə BMT-nin «Uşaq hüquqları haqqında» konvensiyasına qoşulub. Konvensiya uşaq hüquqlarının müdafiəsi, onların sağlamlığı, qida ilə təmin olunmasında dövlətlərin bir-birinə qarşılıqlı yardım göstərmələrinə imkan yaradır.

Hazırda Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsi ilə bağlı qanunvericilik bazası formalaşıb. 1998-ci ilin mayında «Uşaq Hüquqları haqqında» Qanun qəbul edilib. Qanunda uşaqlar barəsində dövlət siyasətinin hər bir uşağın zəruri maddi və normal məişət şəraitində böyüyüb tərbiyə olunmasının, təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldiyi nəzərdə tutulur.

Dünyada təxminən 130 milyon məktəb yaşlı uşaq məktəbə getmir. Onların 2/3-i qız uşağıdır.

Hər il dünyada 12 milyona yaxın uşaq müxtəlif adi xəstəliklərdən vəfat edir. «Uşaq Haqları Konvensiya»sında göstərildiyi kimi hər bir uşağın həyatı və sağlamlığı mühafizə edilməlidir.

Uşaqlara verilən hüquqlara əsasən dövlət onları hər hansı formada ayrı seçkilikdən qorumağa borcludur. Uşaqların valideynləri də dövlət tərəfindən qayğı görmək hüququna malikdirlər.

Azərbaycan xalqı fəxr edir ki, bu gün Heydər Əliyev siyasi kursunu onun layiqli davamçısı İlham Əliyev yüksək səylə davam etdirir. Prezidentimizin ölkəyə rəhbərliyi dövründə respublikada sosial-iqtisadi inkişaf yüksələn xətt üzrə davam edir.

Respublikamızda bütün sahələrə olduğu kimi uşaqlara, onların təhsilinə, sağlamlığına, yaşayışına daim diqqət göstərilir. Respublika Uşaq Fondunun prezidenti M. Əliyevanın daim uşaqlara göstərdiyi qayğı göz önündədir. Əlil, köməksiz uşaqlar üçün məktəblər, uşaq evləri tikilir və onlar üçün hər cür şərait təmin edilir.

Hər bir uşağın sağlam böyümək, təhsil almaq, azad fikir söyləmək, asudə vaxtdan səmərəli istifadə etmək hüququ var. Bu hüquqların qorunub saxlanması üçün Qəbələ rayon C. Yusifov adına Uşaq Yaradıcılıq Mərkəzində (UYM) uşaqların istedadlarının üzə çıxarılması, onların intelektual səviyyələrinin artırılması üçün müxtəlif tədbirlər həyata keçirilir. Arzu edirik ki, bütün uşaqlar sağlam və tərbiyəli böyüyərək məsuliyyətli və layiqli övlad kimi yetişsinlər və cəmiyyətin inkişafına öz layiqli töhfələrini verə bilsinlər.

Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə bütün uşaqları təbrik edirik, onlara aydın səma, parlaq günəş, sevinc dolu günlər arzu edirik!

**Rəfiqə ŞİRİNOVA,**
**C. Yusifov adına Uşaq Yaradıcılıq Mərkəzinin direktoru.**

# Məktəblilər rayon tarix-diyarşünaslıq muzeyində

Xırxatala kənd tam orta məktəbinin şagirdləri 1 iyun—Uşaqları Beynəlxalq Müdafiə Günündə rayon tarix-diyarşünaslıq muzeyini ziyarət etmişlər.

Qədim Alban dövlətinin 900 il paytaxt şəhəri olmuş Qəbələ şəhərinin tarixi mərhələləri ilə tanış olmuş, muzeydə bu qədim məmləkətin tarixini əks etdirən eksponatlara baxış keçirmişlər.



Muzeyin əməkdaşları Azərbaycanın, o cümlədən Qəbələnin ta qədimdən bu günümüzə qədər olan dövru haqqında şagirdlərə ətraflı məlumat vermişlər.

Qədim Azərbaycanın, həmçinin Qəbələnin tarixi inkişaf yolları məktəblilərdə xüsusi maraq doğurmuşdur.

**Fotolar Səhrab Umuyevindir.**

# Otellərimiz dərəcə sertifikatı almışdır



Mehmanxana və mehmanxana tipli obyektlərdə göstərilən xidmətlərin müvafiq tələblərə və standartlara uyğunluğunu yoxlamaq və müəyyən etmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyi mehmanxanaların təsnifatını aparır. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Qəbələ rayonundakı “Qafqaz Resort Hotel” mehmanxanasına 5, “Duyma” mehmanxanasına 4 ulduz dərəcə sertifikatları verilmişdir.